QANUN № 06 (380), 2026, s. 23-29

Əlibəyli Qulamhüseyn Surxay oğlu,
Bakı Dövlət Universitetinin Konstitusiya hüququ kafedrasının baş müəllimi
Ünvan: Bakı şəhəri, Akademik Zahid Xəlilov küçəsi, 33
E-mail: G_alibeyli@yahoo.com

UOT 34.342.53
DOI: https://doi.org/10.30546/2218-9130.060.2026.0108

ÖZBƏKİSTAN RESPUBLİKASINDA PARLAMENT NƏZARƏTİNİN KONSTİTUSİYA HÜQUQİ NİZAMLANMASININ ÜMUMİ SƏCİYYƏSİ

Açar sözlər: *Özbəkistan, Ali Məclis, Qanunvericilik Palatası, Senat, parlament, parlament nəzarəti, parlament nəzarətinin formaları, ombudsman.*

Ключевые слова: *Узбекистан, Олий Мажлис, Законодательная палата, Сенат, парламент, парламентский контроль, формы парламентского контроля, омбудсман.*

Keywords: *Uzbekistan, Oliy Majlis, Legislative Chamber, Senate, parliament, parliamentary control, forms of parliamentary control, ombudsman.*

Özbəkistan Respublikasının Konstitusiyasına görə ölkənin 2 palatalı parlamenti – Özbəkistan Respublikasının Ali Məclisi (O‘zbekiston Respublikasining Oliy Majlisi) ali dövlət nümayəndəli orqanı olub qanunvericilik hakimiyyətini həyata keçirir. Parlamentin aşağı palatası olan Qanunvericilik palatası ümumi, bərabər, birbaşa seçki hüququ, gizli səsvermə yolu ilə proporsional seçki sistemi əsasında seçilir. Parlamentin yuxarı palatası olan Senat ərazi təmsilçilik orqanıdır. Senatın 56 üzvü Qaraqalpaq Respublikası, Daşkənd şəhəri və vilayətlərin nümayəndəli orqanları tərəfindən (hərəsindən 4 senator olmaqla) həmin orqanların üzvləri sırasından seçilir, 9 üzvü isə Özbəkistanın Prezidenti tərəfindən təyin olunur. Ali Məclis parlamentin ənənəvi funksiyalarını, o cümlədən nəzarət funksiyasını həyata keçirir.

Özbəkistan Respublikasında parlament nəzarəti ilə əlaqədar məsələlər Konstitusiya, palatalar haqqında qanunlar, palataların reqlamentləri, “Parlament nəzarəti haqqında” Özbəkistan Respublikasının Qanunu (bundan sonra – “Parlament nəzarəti haqqında” Qanun) və digər normativ hüquqi aktlarla tənzimlənir.

Özbəkistanda 2023-cü ildə həyata keçirilən konstitusiya islahatları nəticəsində parlament nəzarəti sahəsində Ali Məclisin palataları arasında səlahiyyət bölgüsünə yenidən baxıldı, əvvəllər hər iki palatanın səlahiyyətinə eyni dərəcədə aid olan məsələlər ayrı-ayrılıqda Qanunvericilik Palatasının və ya Senatın səlahiyyətinə aid edildi. Başqa sözlə, parlament nəzarəti sahəsində palataların fəaliyyətində təkrarlığı və paralelliyi aradan qaldırmaq məqsədilə palataların məsuliyyət dairələri dəqiqləşdirildi [12, s. 138].

Özbəkistan Respublikası Konstitusiyasının 94-cü maddəsinə əsasən parlament nəzarəti sahəsində Ali Məclisin Qanunvericilik Palatasının müstəsna səlahiyyətlərinə aşağıdakı məsələlər aiddir:

- Özbəkistan Respublikasının Dövlət büdcəsinin icrasına nəzarətin həyata keçirilməsi;

- Özbəkistan Respublikası Hesablama Palatasının hesabatına baxılması;

- Özbəkistan Respublikası Prezidentinin təqdimatı əsasında Özbəkistan Respublikasının Baş nazirinin namizədliyinə baxılması və təsdiq edilməsi;

- Özbəkistan Respublikası Prezidentinin təqdimatı əsasında Özbəkistan Respublikası Nazirlər Kabineti üzvlüyünə namizədlərə baxılması və təsdiq edilməsi;

- ölkənin sosial-iqtisadi inkişafının aktual məsələləri üzrə Özbəkistan Respublikası Baş nazirinin, habelə fəaliyyətlərinə dair məsələlər üzrə Nazirlər Kabineti üzvlərinin hesabatlarının dinlənilməsi;

- Özbəkistan Respublikası Nazirlər Kabinetinin ölkənin sosial-iqtisadi həyatının ən mühüm məsələlərinə dair illik məruzəsinin dinlənilməsi;

- dövlət orqanlarının vəzifəli şəxslərinə parlament sorğusunun göndərilməsi və parlament nəzarətinin digər formalarının həyata keçirilməsi.

Konstitusiyanın 95-ci maddəsi parlament nəzarəti ilə əlaqədar aşağıdakı məsələlərin həllini Ali Məclisin Senatının müstəsna səlahiyyətlərinə aid edir:

- Özbəkistan Respublikası Prezidentinin təqdimatı əsasında Özbəkistan Respublikasının Konstitusiya Məhkəməsinin, Ali Məhkəməsinin, Ali Məhkəmə Şurasının, korrupsiyaya qarşı mübarizə üzrə respublika orqanının rəhbərinin və respublika antiinhisar orqanının rəhbərinin seçilməsi;

- Özbəkistan Respublikası Prezidentinin təqdimatı əsasında Özbəkistan Respublikası Baş prokuroru və Özbəkistan Respublikası Hesablama Palatasının sədrinin vəzifələrinə namizədlərə baxılması və təsdiq edilməsi;

- Özbəkistan Respublikası Prezidenti tərəfindən təklif edilən Özbəkistan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin sədr vəzifəsinə namizəd üzrə məsləhətləşmələrin aparılması;

- Özbəkistan Respublikası Prezidentinin təqdimatı əsasında Özbəkistan Respublikasının xarici dövlətlərdə və beynəlxalq təşkilatlar yanında diplomatik və digər nümayəndəliklərinin rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

- Özbəkistan Respublikası Prezidentinin təqdimatı əsasında Özbəkistan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin sədrinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

- Özbəkistan Respublikası Prezidentinin nazirliklərin və digər respublika icra hakimiyyəti orqanlarının yaradılması və ləğv edilməsi haqqında fərmanlarının təsdiq edilməsi;

- Özbəkistan Respublikası Prezidentinin təqdimatı əsasında amnistiya aktlarının qəbul edilməsi;

- Özbəkistan Respublikası Baş prokurorunun və Özbəkistan Respublikası Mərkəzi Bankı İdarə Heyəti sədrinin hesabatlarının dinlənilməsi;

- Özbəkistan Respublikasının xarici dövlətlərdə və beynəlxalq təşkilatlar yanında diplomatik və digər nümayəndəliklərinin rəhbərlərinin fəaliyyətlərinə dair hesabatlarının dinlənilməsi;

- dövlət orqanlarının vəzifəli şəxslərinə parlament sorğusunun göndərilməsi və parlament nəzarətinin digər formalarının həyata keçirilməsi;

- qanunvericiliyin normalarına uyğun gəlmədiyi hallarda yerlərdə dövlət hakimiyyətinin nümayəndəli orqanlarının qərarlarının ləğv edilməsi.

Bunlardan başqa, Konstitusiyanın 93-cü maddəsi parlament nəzarəti ilə əlaqəli iki məsələni – Özbəkistan Respublikasında korrupsiyaya qarşı mübarizə haqqında illik Milli Məruzənin

dinlənilməsi və parlament istintaqının aparılması – Ali Məclisin hər iki palatasının birgə səlahiyyətlərinə aid edir [10].

Konstitusiya həmçinin parlament palataları tərəfindən qanunvericilik, nəzarət və digər funksiyaların həyata keçirilməsi ilə əlaqədar bəzi prosedur qaydaları ümumi şəkildə nəzərdə tutur [14, s. 33]. Belə ki, Konstitusiyanın 103-cü maddəsi parlament istintaqının aparılmasının hüquqi əsaslarını müəyyən edir. Həmin maddəyə əsasən insan hüquq və azadlıqlarına, cəmiyyətin və dövlətin mənafelərinə təhlükə yaradan, ölkənin təhlükəsizliyi və dayanıqlı inkişafının əsaslarına mənfi təsir göstərə bilən fakt və hadisələrin öyrənilməsi məqsədilə Özbəkistan Respublikası Ali Məclisinin Qanunvericilik Palatası və Senatının birgə qərarı ilə parlament istintaqı aparıla bilər. Parlament istintaqının aparılması üçün Özbəkistan Respublikası Ali Məclisinin Qanunvericilik Palatasının deputatları və Senat üzvləri arasından paritet əsaslarla xüsusi komissiya yaradılır və həmin komissiya öz fəaliyyətini qanuna uyğun olaraq həyata keçirir.

Qeyd etmək lazımdır ki, Özbəkistanın hüquq ədəbiyyatında müvəqqəti komissiya vasitəsi ilə parlament istintaqının aparılmasının prosedur qaydalarının daha müfəssəl təsbit edilməsi zəruri hesab olunur [13, s. 63].

Konstitusiyanın 116-cı maddəsinə əsasən, Özbəkistan Nazirlər Kabineti Ali Məclis və Prezident qarşısında cavabdehdir. 119-cu maddə isə Qanunvericilik Palatasının Nazirlər Kabinetinə etimadsızlıq göstərmək hüququnu təsbit edir.

Konstitusiyanın göstərilən normaları əsasında Özbəkistanda parlament nəzarətinin həyata keçirilməsi ilə əlaqədar digər məsələlər "Parlament nəzarəti haqqında" Qanunla tənzimlənir.

Həmin Qanun parlament nəzarətinin təşkili və həyata keçirilməsinin hüquqi əsaslarını, nəzarət fəaliyyətinin subyekt və obyektlərini, parlamentin nəzarət səlahiyyətlərinin həyata keçirilməsinin əsas formalarını müəyyən edir. Bu Qanunun əsas xüsusiyyəti ondan ibarətdir ki, parlament nəzarətinin əvvəllər müxtəlif qanunvericilik aktları ilə nizamlanan bütün formaları üçün vahid normativ baza yaradan sistemli xarakter daşıyır [11, s. 192-193].

Qanun müəyyən edir ki, Ali Məclisin Qanunvericilik palatası və Senatı, hər iki palatanın komitə və komissiyaları, deputatlar və senatorlar, Qanunvericilik Palatasının siyasi partiya fraksiyaları və Ali Məclisin insan hüquqları üzrə Müvəkkili (ombudsman) Özbəkistanda parlament nəzarətinin subyektləridir. Parlament nəzarətinin obyektini isə Konstitusiya və qanunların, parlament palatalarının və onların orqanlarının qərarlarının, dövlət proqramlarının və həvalə olunmuş vəzifə və funksiyaların yerinə yetirilməsi üzrə dövlət orqanlarının, təsərrüfat idarəetmə orqanlarının və onların vəzifəli şəxslərinin fəaliyyəti təşkil edir. Lakin əməliyyat axtarış fəaliyyətini həyata keçirən orqanların, təhqiqat və istintaq orqanlarının, məhkəmələrin icraatında olan konkret işlərə və materiallara, həmçinin icra icraatı və notarial kargüzarlıq materiallarına baxılması ilə əlaqədar olan fəaliyyəti parlament nəzarətinin obyekti ola bilməz.

Parlament nəzarəti institutunun xarakteristikasında mühüm amillərdən biri parlament nəzarətinin formalarıdır. Adətən parlament nəzarətinin formaları dedikdə, dövlət orqanları və digər təşkilatlar tərəfindən qanun normalarının icrasının yoxlanılması məqsədilə parlament, onun palataları, komissiyaları, deputatları və ya parlament nəzarətini həyata keçirən digər xüsusi orqanlar tərəfindən həyata keçirilən hüquqi əhəmiyyətli hərəkətlər başa düşülür. Parlament tərəfindən həyata keçirilən nəzarət formalarının siyahısı bir sıra amillərdən, o cümlədən idarəetmə formasından və parlamentin ölkənin ictimai-siyasi həyatındakı rolundan asılıdır. Parlament nəzarətinin həyata keçirilməsinin hüquqi formaları normativ müəyyənlik, prosedur baxımından tənzimlənmə və konkret hüquqi və idarəetmə

nəticələrinin əldə edilməsinə yönəlmiş olması ilə xarakterizə olunur [5, s. 61-62].

"Parlament nəzarəti haqqında" Qanun parlament nəzarətinin formalarının geniş dairəsini nəzərdə tutur. Bu formalara aşağıdakılar aiddir: 1) Dövlət büdcəsinin icrasının gedişinə baxılması və ona nəzarətin həyata keçirilməsi; 2) Özbəkistan Respublikası Nazirlər Kabinetinin ölkənin sosial-iqtisadi həyatının ən mühüm məsələləri üzrə illik məruzəsinin dinlənilməsi; 3) Özbəkistan Respublikası Prezidentinin xalqa və Özbəkistan Respublikası Ali Məclisinə müraciətindən irəli gələn və müvafiq il üçün nəzərdə tutulan dövlət proqramının icrası barədə Nazirlər Kabinetinin hesabatına baxılması; 4) Özbəkistan Respublikası Korrupsiyaya Qarşı Mübarizə Agentliyinin ölkədə korrupsiyaya qarşı mübarizə üzrə illik Milli Məruzəsinin dinlənilməsi; 5) Özbəkistan Respublikasının Baş nazirinin ölkənin sosial-iqtisadi inkişafının aktual məsələləri üzrə hesabatının dinlənilməsi; 6) Nazirlər Kabineti üzvlərinin fəaliyyətləri ilə bağlı hesabatlarının dinlənilməsi; 7) Qanunvericilik Palatası və Senatın iclaslarında dövlət orqanları rəhbərlərinin fəaliyyətləri ilə bağlı məlumatlarının dinlənilməsi; 8) Qanunvericilik Palatasının iclaslarında hökumət üzvlərinin deputatların suallarına cavablarının dinlənilməsi; 9) Senatın iclaslarında vilayət, rayon və şəhər hakimlərinin (müvafiq ərazilərdə icra hakimiyyəti başçılarının) həmin ərazilərin inkişafı məsələləri üzrə hesabatlarının dinlənilməsi; 10) Özbəkistan Respublikasının xarici dövlətlərdə və beynəlxalq təşkilatlar yanında diplomatik və digər nümayəndəlik rəhbərlərinin fəaliyyətləri ilə bağlı hesabatlarının dinlənilməsi; 11) Özbəkistan Respublikası Hesablama Palatasının hesabatına baxılması; 12) Özbəkistan Respublikası Baş prokurorunun hesabatının dinlənilməsi; 13) Özbəkistan Respublikası Mərkəzi Bankı İdarə Heyəti sədrinin hesabatının dinlənilməsi; 14) parlament sorğusu; 15) Qanunvericilik Palatasının deputatının və Senat üzvünün sorğusu; 16) Qanunvericilik Palatası və Senat komitələri tərəfindən dövlət orqanları rəhbərlərinin məlumatlarının dinlənilməsi; 17) Qanunvericilik Palatası və Senat komitələri tərəfindən qanunvericilik aktlarının icra vəziyyətinin, hüquqtətbiqetmə təcrübəsinin öyrənilməsi və normativ hüquqi aktların vaxtında qəbuluna dair monitorinqin həyata keçirilməsi; 18) parlament istintaqı [1].

Parlament nəzarətinin göstərilən formalarının həyata keçirilməsinin prosedur qaydaları "Parlament nəzarəti haqqında" Qanun, Ali Məclisin Qanunvericilik Palatası və Senatı haqqında konstitusiya qanunları [2; 3], eləcə də palataların reqlamentləri [8; 9] ilə tənzimlənir.

Parlament nəzarəti sahəsində Qanunvericilik Palatasının və Senatın komitələri də müəyyən səlahiyyətlərə malikdirlər. Parlament komitələri dövlət orqanlarından və digər təşkilatlardan, vəzifəli şəxslərdən parlament nəzarətinin həyata keçirilməsi üçün lazımi sənədləri, ekspert rəylərini, statistik və digər məlumatları tələb edə bilərlər. Müvafiq subyektlər tələb edilən məlumatları müraciətin alındığı gündən etibarən on gündən gec olmayaraq parlament komitələrinə təqdim etməyə borcludurlar.

Parlament komitələrinin iclaslarında komitənin iş planına, müvafiq palatanın və onun bürosunun qərarlarına uyğun olaraq dövlət orqanları rəhbərlərinin qanunlara riayət etmələri, palatanın, onun bürosunun və komitələrinin qərarlarının icrası barədə məlumatları dinlənilə bilər. Dövlət orqanları rəhbərlərinin məlumatlarının dinlənilməsinin yekunlarına dair parlament komitələri qərarlar qəbul edir və bu qərarlar müvafiq dövlət orqanına göndərilir.

Parlament komitələri həmçinin öz iş planlarına uyğun olaraq vaxtaşırı yerlərə səfər etməklə dövlət orqanları tərəfindən qanunların, parlament palatalarının qərarlarının icra vəziyyətini, hüquqtətbiqetmə təcrübəsini öyrənirlər. Qanunvericilik aktlarının icra vəziyyətinin və

hüquqtətbiqetmə təcrübəsinin öyrənilməsinin nəticələrinə əsasən parlament komitələri öz iclaslarında dövlət orqanları rəhbərlərinin məlumatlarını dinləyə, həmçinin öyrənmənin nəticələrinin müvafiq palatanın müzakirəsinə çıxarılması barədə qərar qəbul edə bilərlər. Parlament komitələri həmçinin yeni qəbul edilmiş qanunların icrası məqsədilə normativ hüquqi aktların vaxtında qəbul edilməsinə dair monitorinqi həyata keçirirlər. Monitorinqin nəticələri müvafiq komitənin iclasında müzakirə oluna bilər [1].

Yuxarıda qeyd olunduğu kimi, Özbəkistan Respublikası Ali Məclisinin insan hüquqları üzrə Müvəkkili (ombudsman) də Özbəkistanda parlament nəzarətinin subyektləri sırasına aid edilir. Yəni Özbəkistanda ombudsman parlament ombudsmanı kateqoriyasına aiddir. Özbəkistan Respublikası Ali Məclisinin İnsan hüquqları üzrə müvəkkili (ombudsman) dövlət orqanları, müəssisələr, idarələr, təşkilatlar və vəzifəli şəxslər tərəfindən insan hüquq və azadlıqları haqqında qanunvericiliyə riayət olunmasına parlament nəzarətinin təmin edilməsi səlahiyyətləri verilmiş vəzifəli şəxsdir.

Müvəkkil institutu insan hüquq və azadlıqlarının müdafiəsinin mövcud forma və vasitələrini tamamlayır [6, s. 115]. Müvəkkil insan hüquqları sahəsində Özbəkistan Respublikası qanunvericiliyinin təkmilləşdirilməsinə və onun beynəlxalq hüquq normalarına uyğunlaşdırılmasına, beynəlxalq əməkdaşlığın inkişafına kömək edir, həmçinin vətəndaşların insan hüquqları sahəsində hüquqi mədəniyyətinin yüksəldilməsinə dəstək göstərir.

Müvəkkilin vətəndaş hüquqlarının müdafiəsi üzrə nəzarət funksiyalarını həyata keçirməsi insan hüquqlarına birbaşa və ya dolayısı ilə təsir göstərən qanunvericiliyin öyrənilməsi ilə sıx bağlıdır. İnsan hüquqlarının bu və ya digər orqanlar və ya vəzifəli şəxslər tərəfindən pozulması ilə bağlı konkret hallara baxarkən, Müvəkkil qüvvədə olan qanunların praktiki səmərəliliyini qiymətləndirmək, insan hüquqlarının qanunvericilik tənzimlənməsi ilə bağlı problemləri, milli hüquq normalarının beynəlxalq normalara uyğunluğunu müəyyən etmək hüququna malikdir

Müvəkkil öz illik hesabatında deputatları və senatorları insan hüquqlarının təmin edilməsi və müdafiəsi sahəsində yaxın dövr və uzunmüddətli perspektiv üçün nəzərdə tutulmuş nəzarət-analitik iş planı barədə məlumatlandırır, həmçinin insan hüquqları haqqında qanunvericiliyin təkmilləşdirilməsinə yönəlmiş təkliflər irəli sürür [4].

"Parlament nəzarəti haqqında" Qanuna görə (Qanunun 22-ci maddəsi), parlament nəzarətinin nəticələrinə əsasən parlament nəzarətinin subyektləri öz səlahiyyətləri çərçivəsində aşağıdakıları edə bilərlər:

- Özbəkistan Respublikası Prezidentinə hökumət üzvünün istefaya göndərilməsi barədə təklif təqdim etmək;

- qanunvericilik aktlarının, dövlət proqramlarının icrasının səmərəliliyinin artırılmasına, onların üzərinə qoyulmuş vəzifə və funksiyaların həyata keçirilməsinə yönəlmiş tədbirlərin görülməsi barədə dövlət hakimiyyəti və idarəetmə orqanlarına təklif və tövsiyələr vermək;

- təqdim edilmiş məruzələri, hesabatları, məlumatları və digər materialları irad və təkliflər göstərilməklə müəyyən edilmiş qaydada yenidən işlənməsi üçün dövlət hakimiyyəti və idarəetmə orqanlarına qaytarmaq;

- parlament nəzarəti materiallarını səlahiyyətli dövlət orqanlarına onların səlahiyyətlərinə uyğun baxılması üçün göndərmək;

- vətəndaşların hüquq və qanunla qorunan mənafelərinin və ya qanunvericiliyin digər pozuntularının dərhal qarşısının alınması üçün tədbirlər görülməsi tələbi ilə müvafiq dövlət hakimiyyəti və idarəetmə orqanlarına və vəzifəli şəxslərə müraciət etmək;

- vəzifəli şəxslərin məsuliyyətə cəlb edilməsi, vəzifədən azad olunması barədə müvafiq dövlət

hakimiyyəti və idarəetmə orqanlarına təklif və tövsiyələr vermək;

- yeni qanunvericilik aktı layihəsinin hazırlanmasını və ya qüvvədə olan qanunvericilik aktlarının yenidən nəzərdən keçirilməsini təşəbbüs etmək;

- parlament nəzarətinin nəticələrini ictimailəşdirmək [1].

Fəaliyyətin üzərində parlament nəzarəti həyata keçirilmiş müvafiq dövlət hakimiyyəti və idarəetmə orqanları parlament nəzarəti subyektləri tərəfindən qəbul edilmiş qərarların baxılmasını və icrasını təmin etməli, parlament nəzarətinin nəticələrinə əsasən hazırlanmış təklif və tövsiyələrin həyata keçirilməsinə yönəlmiş zəruri tədbirlər hazırlamalı və (və ya) müvafiq qərarlar qəbul etməli, təklif və tövsiyələrə baxılmasının nəticələri və onların əsasında görülmüş tədbirlər barədə parlament nəzarəti subyektlərinə məlumat verməli, qanunvericiliyin pozulmasına yol vermiş dövlət hakimiyyəti və idarəetmə orqanlarının vəzifəli şəxsləri barəsində məsuliyyət tədbirləri görməlidir.

Özbəkistanın elmi hüquq ədəbiyyatında qeyd olunur ki, parlament nəzarətinin bu cür çoxsaylı formalarının mövcudluğu parlamentlərə icra hakimiyyətinin fəaliyyətini siyasi, hüquqi və maliyyə-iqtisadi aspektlər də daxil olmaqla hərtərəfli qiymətləndirməyə imkan verir. Öz növbəsində, parlament nəzarəti formalarının səmərəli həyata keçirilməsi dövlət idarəçiliyində şəffaflığın artırılmasına, cəmiyyətin hakimiyyət orqanlarına olan etimadının möhkəmləndirilməsinə və hüquqtətbiqetmə təcrübəsinin təkmilləşdirilməsinə töhfə verir [7].

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Закон Республики Узбекистан “О парламентском контроле” / https://lex.uz/docs/2929475

2. Закон Республики Узбекистан «О регламенте Законодательной палаты Олий Мажлиса Республики Узбекистан» / https://lex.uz/ru/docs/40283#40292

3. Закон Республики Узбекистан «О регламенте Сената Олий Мажлиса Республики Узбекистан» / https://lex.uz/docs/60217

4. Закон Республики Узбекистан «Об Уполномоченном Олий Мажлиса по правам человека (омбудсмане) / https://lex.uz/docs/276155#276426

5. Караходжаева О. Общая характеристика форм парламентского контроля / Yangi davr ilm-fani: inson uchun innovatsion g‘oya va yechimlar. XI Respublika ilmiy-amaliy konferensiyasi materiallari to‘plami. 1-jild, 11-son (dekabr, 2025-yil). Toşkent, 2025, s. 60-63

6. Караходжаева О. Р. Парламентское право Республики Узбекистан. Ташкент, Изд-во ТГЮУ, 2023, 144 с.

7. Караходжаева О. Р. Прововые основы осуществления парламентского контроля в республике Узбекистан. Ташкент, Изд-во ТГЮУ, 2024, 112 с.

8. Конституционный Закон Республики Узбекистан «О Законодательной палате Олий Мажлиса Республики Узбекистан» / https://lex.uz/docs/52069

9. Конституционный Закон Республики Узбекистан «О Сенате Олий Мажлиса Республики Узбекистан» https://www.lex.uz/acts/52006

10. Конституция Республики Узбекистан / https://lex.uz/docs/6445147 (Son baxış - 21.05.2026)

11. Сафаев Ж. Историко-правовое развитие парламентского контроля в Узбекистане: генезис и современное состояние. Общество и инновации, 6(4/S) 2025, 189–195

12. Сафаров Дж. И. Реформа верхней палаты парламента Республики Узбекистан в современных конституционно-правовых условиях: компаративно-правовой анализ основных тенденций // Государство и право. 2024. № 6. С. 137–144.

13. Собирова, М. (2025). Зарубежный опыт парламентского контроля и перспективы его применения в Узбекистане. Общество и инновации, 6(5/S), 60–65

14. Хакимов Р.Р. Конституционно-правовой статус Олий Мажлиса Республики Узбекистан. 2020

Алибейли Гуламгусейн Сурхай оглу,
старший преподаватель кафедры конституционного права
Бакинского государственного университета

ОБЩАЯ ХАРАКТЕРИСТИКА КОНСТИТУЦИОННО-ПРАВОВОГО РЕГУЛИРОВАНИЯ ПАРЛАМЕНТСКОГО КОНТРОЛЯ В РЕСПУБЛИКЕ УЗБЕКИСТАН

РЕЗЮМЕ

Статья посвящена общей характеристике конституционно-правового регулирования парламентского контроля в Республике Узбекистан. Отмечается, что вопросы, связанные с парламентским контролем в Республике Узбекистан, регулируются Конституцией, конституционными законами о палатах Олий Мажлиса, регламентами палат, Законом «О парламентском контроле», законом об Омбудсмане и другими нормативно-правовыми актами. В статье комментируются основные положения Конституции Узбекистана, касающиеся парламентского контроля, а также в обобщённой форме анализируются отношения, регулируемые другими законами.

Alibayli Gulamhuseyn Surkhay,
Senior lecturer, Constitutional Law Department,
Baku State University

GENERAL CHARACTERISTICS OF THE CONSTITUTIONAL AND LEGAL REGULATION OF PARLIAMENTARY CONTROL IN THE REPUBLIC OF UZBEKISTAN

SUMMARY

The article is devoted to the general characteristics of the constitutional and legal regulation of parliamentary control in the Republic of Uzbekistan. It is noted that issues related to parliamentary control in the Republic of Uzbekistan are regulated by the Constitution, constitutional laws on the chambers of the Oliy Majlis, the rules of procedure of the chambers, the Law “On Parliamentary Control,” the law on the Ombudsman, and other normative legal acts. The article comments on the main provisions of the Constitution of Uzbekistan concerning parliamentary control and provides a general analysis of the relations regulated by other laws.

Redaksiyaya daxilolma tarixi: 08.06.2026
Təkrar işlənməyə göndərilmə tarixi: göndərilməyib
Çapa qəbul olunma tarixi: 15.06.2026